

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 oktyabr 2024-cü il №79 (2890) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Prezident İlham Əliyev Füzulinin azad olunmasının növbəti ildönümü ilə bağlı paylaşım edib

Prezident İlham Əliyev Füzulinin işğaldan azad edilməsinin növbəti ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edir:

"Zəfər tariximiz - Füzulinin Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə səhifələrində Müstəqilliyin Bərpası Günü ilə bağlı foto paylaşıb.

## Türkiyə Prezidenti xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan bununla bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Dostumuz, qardaşımız, "iki dövlət, bir millət" anlayışına sahib olduğumuz Azərbaycanın 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününü təbrik edirəm. Prezident və dəyərli qardaşım İlham Əliyevə, bütün Azərbaycan xalqına salamlarımı və sevgimi çatdırıram".

## Türkiyə Müdafiə Nazirliyi Azərbaycanı Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə təbrik edib




Türkiyənin Milli Müdafiə Nazirliyi Azərbaycanı 18 Oktyabr - Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, nazirliyin sosial şəbəkələrdəki paylaşımında "Bir millət, iki dövlət" kəlamı işığında Türkiyə və Azərbaycan xalqlarının birliyinin sarsılmaz olduğu vurğulanıb.

Paylaşımın sonunda "Yaşasın Türkiyə və Azərbaycan qardaşlığı!" sözləri və iki qardaş ölkənin Dövlət bayraqlarının təsviri yer alıb.

*Reportaj*

# “Pilotlar səmaların əsgərləridir”



İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanda ordu quruculuğu daha da genişləndi. Bütün qoşun növləri üzrə şəxsi heyətin hərbi biliklərinin möhkəmləndirilməsi, silahlanmaya yeni silah növlərinin daxil edilməsi, onların istismar xüsusiyyətlərinin mənimsədilməsi, əldə olunan vərdişlərin təlimlər vasitəsilə təkmilləşdirilməsi Ali Baş Komandanın, müdafiə nazirinin göstərişləri və tövsiyələri əsasında dönməzliklə həyata keçirilir. Fəaliyyətdə olan qoşun növlərində olduğu kimi, yeni yaradılan qoşun növlərində də qarşılıqlı koordinasiya formalaşdırıldı, möhkəmləndirildi. Bu baxımdan Hərbi Hava Qüvvələrində də yeniləşmələr ordunun döyüş hazırlığının yüksəlişini təmin etdi. Bu gün Azərbaycanın Hərbi Hava Qüvvələri dövlətin hava məkanını böyük məsuliyyətlə qoruyur, havadan ehtimal edilən istənilən hücumun, həmlənin, təxribatın qarşısını almağa qadirdir.

İkinci Qarabağ müharibəsində digər qoşun növləri kimi, Hərbi Hava Qüvvələrimiz də düşmənin müqavimətini qırmaqda, mühəndis-istehkam sədlərinin, dayaq və komanda məntəqələrinin, döyüş texnikalarının, canlı qüvvəsinin məhv edilməsində neçə-neçə uğurlu döyüşlər həyata keçirdi. Tarixi Zəfərdən sonra - ordu quruculuğunun yeni mərhələsində Hərbi Hava Qüvvələrində şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün müntəzəm müxtəlif miqyaslı, müxtəlif təyinatlı təlimlər keçirilir.

Bu günlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri hazırlıq planına uyğun olaraq təlim-məşq uçuşları icra edib. Aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilib. Hərbi pilotlar qalxma və enmə, aşağı, orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra ediblər. Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə hərbi pilotlar yüksək peşəkarlıq göstəriblər.

Təlim-məşqlər məhdud ərazidə, təlimlər daha geniş ərazidə keçirilir. Təlim-məşqlər gerçək döyüş şəraitinə imitasiya olunur, təlimlərdə daha geniş heyət iştirak edir, tapşırıqlar münsiflər heyətinin nəzarəti ilə yerinə yetirilir. Bu baxımdan təlim-məşq öyrənmə, təkmilləşmə deməkdir, təlim öyrənilmişlərin müqayisəli, müştərək yerinə yetirilməsidir. Digər tərəfdən, təlim-məşqlərdən fərqli olaraq təlimlər praktiki atışlarla icra olunur.

Təlim-məşq döyüş təyyarələrini təlimə hazırlayan texniki heyətin də, uçuşu yerinə yetirən pilotların da mənəvi-psixoloji hazırlığında həmişə gərəkli vasitədir.

Hərbi Hava Qüvvələrində döyüş fəaliyyətinin yüksək səviyyədə saxlanılması üçün keçirilən təlim-məşqlər ordunun gücünün daha da artırılmasına hesablanır. Belə təlimlər iştirak edən şəxsi heyətin döyüş hazırlığı üçün təkmilləşmə, püxtələşmə mərhələsi olur.

Təlim-məşqlərdə komandanlığın qərarı ilə hücum təyyarələri müəyyənləşdirilir, şəxsi heyət təyin olunur, şərti düşmən hədəfləri məhv edilir. İkinci Qarabağ müharibəsində ordu hissələrimiz düşmənin dayaq və komanda məntəqələrini dağıdır, döyüşə-döyüşə irəliləyirdi. Döyüşən ordumuza artilleriyamız da böyük dəstək verirdi, hərbi aviasiyamız da. Düşmənin iri qruplaşmalarına, manevr etməyə hazırlaşan, ordu hissələrimizə, mövqelərimizə, itirdikləri ərazilərə hücuma hazırlaşan düşmən qüvvələrinin səfini döyüş təyyarələrimiz pozur, düşmənin döyüş texnikalarını, canlı qüvvəsini məhv edirdi. Zamanında pilotlarımızın döyüş qabiliyyətini, peşə hazırlığını, məharətini mütəmadi keçirilən təlimlər formalaşdırmışdı. Bu baxımdan hər belə təlim bilavasitə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında əhəmiyyətli olmuşdu və bu, Vətən müharibəsində qələbələrimizi təmin edən amillərdən biri oldu.

**(Ardı 3-cü səhifədə)**



3-cü səhifədə

“Qürurluyam ki, qalib ordunun döyüşçüsüyəm”



7-ci səhifədə

Dövlət qurumlarının əməkdaşları arasında stolüstü tennis yarışları keçirilib



7-ci səhifədə

Qələbəyə gedən yol sıra meydanından başlayır

# Azərbaycan və İtaliya arasında "Qərargah danışıqları" keçirilib





"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İtaliya Respublikasının Baş Qərargahı arasında 2024-cü il üçün imzalanmış ikitərəfli əməkdaşlıq Planı"na əsasən, Bakı şəhərində "Qərargah danışıqları" keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə ölkələr arasında güclənən əlaqələrin hərb sahəsinə də müsbət təsirinin olduğu qeyd edilib. Cari dövrdə həm regional, həm də beynəlxalq təhlükəsizliyin önəmindən danışan tərəflər dünyada sülhün təmin olunması üçün birgə çalışmağın əhəmiyyətini vurğulayıblar.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan və İtaliyanın hərb sahəsində qurulan əlaqələrinin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Hərbi-texniki, hərbi təhsil sahələri üzrə əməkdaşlıq fəaliyyətləri təhlil olunub.

Təqdim olunan brifinqlərdən sonra qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Görüşün sonunda protokollar imzalanıb.

# Azərbaycan nümayəndə heyəti Türkiyədə səfərdədir





Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hüquqşünaslarından ibarət nümayəndə heyəti Türkiyəyə işgüzar səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Elçin Əliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Türkiyə Respublikası milli müdafiə nazirinin müavini cənab Şuay Alpay ilə görüşüb.

Görüşdə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normaları, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə hüququn inteqrasiyası və maraq doğuran bir sıra digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Hüquq Xidmətləri Baş İdarəsində Hüquq fakültəsi üzrə zabitlərin peşə təhsilinin başa çatması münasibətilə keçirilən tədbirdə iştirak edib.

Buraxılış mərasimində çıxış edənlər məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıbar.

Cənab Ş.Alpay Azərbaycan nümayəndə heyətini 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib.

Sonda təhsilini uğurla başa vuran Azərbaycan Ordusunun hərbi qulluqçusuna və digər məzunlara sertifikatlar təqdim olunub.

# Yeni yaradılan İntellektual qabiliyyətli bölmələrin şəxsi heyəti ilə görüş keçirilib






Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində Azərbaycan Ordusunda yeni yaradılan İntellektual qabiliyyətli bölmələrdə xidmət edən yüksək intellektə malik istedadlı gənc əsgərlərlə görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdən əvvəl Heydər Əliyev Muzeyində Ümummilli Liderin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri qoyulub, ruhuna dərin hörmət və ehtiram nümayiş etdirilib.

Müdafiə Nazirliyinin və Milli Müdafiə Universitetinin rəhbər heyəti, İntellektual qabiliyyətli bölmələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və onların valideynlərinin iştirak etdiyi tədbirdə çıxış edənlər hərbi xidmətkeçmə ilə bağlı tətbiq olunan yeni konsepsiya ilə bağlı ətraflı məlumat veriblər. Qeyd olunub ki, yeni yaradılan konsepsiyaya əsasən təhsildə fərqlənən istedadlı gənclərin bilik və bacarıqlarından daha səmərəli faydalanmaq, eyni zamanda, onların karyera inkişafına töhfə vermək məqsədilə, hərbi xidmətdə olan istedadlı çağırışçılar gənc əsgərlərin hazırlığı proqramını başa çatdırdıqdan sonra Milli Müdafiə Universitetinin tərkibində yaradılmış İntellektual qabiliyyətli bölmələrin tərkibində öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunmaqla hərbi xidmətlərini davam etdirəcəklər.



Milli Müdafiə Universitetinin tərkibində yaradılmış İntellektual qabiliyyətli bölmələrin şəxsi heyəti adından çıxış edən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu onlar üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib və bu bölmələrdə xidmət etməklə öz peşə sahələri üzrə faydalı iş təcrübəsi qazanacaqlarını əminliklə qeyd edib. Ali təhsil müəssisələrində öyrəndikləri bilikləri xidmət müddətində praktiki icra etməklə daha da təkmilləşdirəcəklərinə və Vətənə faydalı olacaqlarına söz verib.

Hərbi qulluqçuların ailə üzvləri çıxışlarında ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində gənclərin fərdi inkişafı naminə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Azərbaycan Ordusunda yeni yaradılan İntellektual qabiliyyətli bölmələrdə Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinə qəbul imtahanından bütün ixtisaslar üzrə 600 və yuxarı bal toplamış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nın şərtlərinə uyğun olan qaliblər, həmçinin cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə beynəlxalq reytinqi ("Times Higher Education (THE) World University Rankings" və ya "Academic Ranking of World Universities" (Shanghai)) 500-cü yerdən aşağı olmayan sırada yer alan xarici ali təhsil müəssisəsinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçılar xidmət edəcəklər.

# “Pilotlar səmaların əsgərləridir”





(Əvvəli 1-ci səhifədə)

Mayor Sabir Nəsirov Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunudur. Kursant kimi yüksək aviasiyaya maraq göstərib. Bu maraq onun peşəkarlaşmasında ayrıca amil olub. Sabir də istəyinə çatıb. Elmi bilikləri öyrənməklə, təcrübi vərdişləri təkmilləşdirməklə, təlim-məşqlərdə müntəzəm və məsuliyyətlə iştirak etməklə. "Beynəlxalq təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotlarının uçuşlarında iştirak etmək də, belə uçuşları izləmək də məni həmişə qürurlandırıb. Onların göylərə böyük sevgisi torpağa sevgidəndir. Uçduğumuz göylər öz göylərimizdi. Uçuşlarda hüdudların şərti nəhayətsizliyi Vətənə sevgimizin nəhayətsizliyindən keçir. Biz göylərimizin əsgəriyik...", - mayor Sabir Nəsirovun fikirlərini bir gerçəkliyin ifadəsi bilirəm: Azərbaycanın hava məkanı da ciddi qorunur, təlim-məşqlərlə Hərbi Hava Qüvvələri məqamında digər qoşun növləri ilə gərəkli hərbi koordinasiya (əməliyyat əlaqəsi) yaratma vərdişlərinə də yiyələnib. Bu, İkinci Qarabağ müharibəsində də təsdiqləndi. Bugün də Vətən müharibəsində qazanılan təcrübələr nəzərə alınmaqla Hərbi Hava Qüvvələrinin döyüş hazırlığının daha da artırılması istiqamətində məqsədyönlü işlər uğurla davam edir.

Mayor Sabir Nəsirov Neftçala rayonundandır. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, sonra Ali Hərbi Təyyarəçilik Məktəbini 2012-ci ildə bitirib. Leytenant kimi Hərbi Hava Qüvvələrində xidmətə başlayıb. O da İkinci Qarabağ müharibəsi iştirakçısıdır. Döyüş təəssüratlarını Hərbi Hava Qüvvələrinin müharibədə iştirakı kimi dinlədim: Hərbi pilotlarımız quru qoşunlarının əməliyyatlarına dəstək verirdi, döyüş atışlarını yerinə yetirir, onların döyüşə-döyüşə irəliləməsinə imkan yaradırdı.

Sentyabrın 27-si idi. Döyüş əməliyyatını yerinə yetirmək üçün Kəlbəcərə uçurdum. İdarə etdiyim döyüş təyyarəsinin təmas xəttinin şərti sərhədində olduğunu biləndə bir qədər həyəcanlandım. Bu həyəcanın keçici olduğunu bilsəm də, düşüncələrimdə bir həsrətin səmumu əsdi. Anlar keçincə düşmənin mövqelərinə yaxınlaşırdım. Mənə elə gəlirdi ki, qazanacağımız Böyük Qələbənin başlanğıcına yaxınlaşıram, düşmənə ilk hava zərbəsini mən vuracam. Əmrə müvafiq olaraq düşmənin mövqelərinə aviabombalar atdım. Duyumumla hiss etdim ki, düşmən bu hücumun ağrılarını son nəfəsinə kimi unuda bilməyəcək. Azərbaycan Ordusunun ilk aviazərbəsi onun müqavimət göstərmə əzmini sındıracaq. Növbəti əməliyyatda ilk əməliyyatın izlərini müşahidə edə bildim. Uçuşumu kursant olanda mənə təyyarənin idarə edilməsini öyrədən müəllimlərimə, döyüş bacarığımın artırılmasını təmin edən komandirlərimə, təlim-məşqlərdə mənə dəyərli məsləhətlər verən təcrübəli zabitlərə minnətdarlıqla davam etdirdim, əməliyyatı uğurla yerinə yetirdim. Düşmənin iri qruplaşmasının oda qalandığını ani də olsa görmək, həm də çox ucalıqlardan görmək qürurума döndü...

Baş leytenant Rəşad İsmayılov Şərur rayonunda anadan olub, Heydər Əliyev adına Hərbi Liseydə oxuyub, təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) davam etdirib. "Hər uçuşu Vətənə hesabat bilirəm. İkinci Qarabağ müharibəsində kursant idim. Döyüşləri mən də televiziyadan izləyirdim. Onda yaşımın azlığına görə təəssüflənmişdim. Bugünkü təlim-məşqdə mən də iştirak etdim. Düşmənin şərti hədəflərini sıradan çıxartdıq. Bir anlığa mənə elə gəldi ki, gerçək döyüşdəyəm və düşmənə təlefat verib bazaya qayıdıram...", - baş leytenant Rəşad İsmayılov belə dedi. Bu kəlmələr zabitin Vətənə sevgisinin ifadəsidir.

"Biz səmaların əsgəriyik!" deyənlərdən ikisi - mayor Sabir Nəsirovla baş leytenant Rəşad İsmayılov təlim-məşqdən sonra tədbirin təfərrüatı haqqında fikir mübadiləsi aparır ki, bu da təlim-məşqin davamı kimi öyrənmə prosesidir; təlim-məşqin xarakteri öyrənməkdir, öyrənə-öyrənə peşəkarlaşmaqdır. Bu, mahiyyəti baxımından döyüş hazırlığının yüksəldilməsi deməkdir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

---

*Nümunəvi xidmət*

# “Qürurluyam ki, qalib ordunun döyüşçüsüyəm”

Vətən vətənpərvər oğulların sayəsində Vətən olur. O oğullar ki, Vətənin ərazi bütövlüyünə qarşı təhdidin baş verdiyi andan onun müdafiəsinə qalxırlar. Belə vətənpərvər oğulların sayəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Onlar Vətənə sevgilərindən güc alaraq döyüş meydanında rəşadət göstərdilər və xalqımıza Böyük Qələbə sevincini yaşatdılar.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Nicat Hümbətov da vətənpərvər oğullardan biridir. Ailəsi Laçın rayonundan məcburi köçkün düşərək Bərdə rayonunda məskunlaşmalı olublar. Nicat da Bərdə rayonunda dünyaya göz açıb. Laçın həsrəti ilə yaşayıb. Hərbçi olanda da bu arzu ilə xidmətə başlayıb: "Tezliklə döyüşlər başlasın, torpaqlarımızın işğaldan azad edilməsində iştirak etsin və ailəsi ilə birlikdə Laçına yenidən qayıtsınlar". Bu amalla ordu sıralarında xidmətə yollanır. Müvafiq kursu uğurla başa vurub, "N" hərbi hissəsində xidmətə başlayır. Hərbi biliklərə və vərdişlərə dərindən yiyələnməyi, nümunəvi, bacarıqlı hərbçi olmağı qarşısına məqsəd qoyur.



2020-ci ilin 27 sentyabr gününü Nicat belə xatırlayır:

- Səhər idi. Həmişəki kimi xidmətə başlamışdım. Çox keçmədi "Həyəcan" siqnalı verildi. Düşmən genişmiqyaslı təxribata başlamışdı, mövqelərimizi artilleriya silahlarından atəşə tuturdu. Ali Baş Komandanın döyüş əmri ilə əks-hücuma başladıq. Dəqiq atəş zərbələri ilə düşmənin atəş nöqtələrini susdurduq, dayaq məntəqələrini nəzarətə götürdük. Hər birimiz yüksək əhval-ruhiyyədə döyüşürdük. Qürurluyam ki, mən də döyüşlərin iştirakçısı oldum, qalib ordunun nümayəndəsiyəm.

Çavuş Nicat Hümbətov döyüşlərdəki fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

Hal-hazırda doğma Qarabağımızda yerləşən bölmələrdən birində xidmət edən Nicat komandiri olduğu manqanın şəxsi heyətinə hərbi bilikləri səylə öyrədir, Vətən müharibəsində qazandığı döyüş təcrübəsini onlara aşılayır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

---

# Vətənə xidmət amalımızdır

"N" hərbi hissəsində şəxsi heyətin hər biri müqəddəs borcunu şərəflə yerinə yetirməklə Vətənə, xalqa xidməti həyatının mənası hesab edir. Belə mərd, fədakar hərbçilərdən olan Kahin Ceyhun oğlu Muradovun adı da xüsusi vurğulandı. O, intizamlı, vətənpərvər, cəsarətli, qorxmaz hərbi qulluqçu kimi tanınır.

Kahin uşaqlıq, yeniyetməlik çağlarından vətənpərvər ruhda tərbiyə alıb. Təhsil aldığı məktəbdə də nümunəvi şagird olub. Öyrəndik ki, Kahin Muradov Şəmkir rayonunun Mahmudlu kəndində anadan olub. Şəhid Yaşar Əsgərovun adını daşıyan orta məktəbdə təhsil alıb. Vətənpərvərlik tədbirlərində həmişə böyük həvəslə iştirak edib. "Şahin" hərbi-idman oyunlarında məktəbin şərəfini qoruyanlardan olub.

2011-ci ildə orta məktəbi bitirdikdən sonra cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində müddətli xidmətə başlayıb. İlk günlərdən çalışqan, intizamlı əsgər kimi tanınıb. Ona təhkim olunan silahdan məharətlə istifadə etməyi öyrənib. Döyüş və mənəvi-psixoloji hazırlıq məşğələlərində həmişə fərqlənib. Komandanlıq tərəfindən ailəsinə təşəkkür məktubu ünvanlanaraq, bacarıqlı, cəsur, qorxmaz oğul böyütdükləri üçün Muradovlar ailəsinə minnətdarlıq ifadə olunub.

2013-cü ildə ordu sıralarından tərxis olunsa da, yenidən taleyini ordu həyatı ilə bağlamaq qərarına gəlib. Vətən torpaqlarını işğalçılardan azad edən igidlərin sırasında olacağını bildirib. "Vətən torpaqları xilasını qeyrətli, mərd oğullarından gözləyir. Torpaqlarımızı işğalçılardan azad etmək, ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin etmək bizim ən müqəddəs borcumuzdur", - deyən Kahin Muradov sənədlərini "N" hərbi hissənin komissiyasına təqdim edib. Müvafiq kursu müvəffəqiyyətlə bitirdikdən sonra "N" hərbi hissəsində hərbi xidmətini davam etdirib. Manqa komandiri kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlib.

27 sentyabr 2020-ci ildə Ermənistan ordu hissələri ölkəmizin ərazilərinə genişmiqyaslı hücum həyata keçirməyə başladılar. Buna cavab olaraq Müzəffər Ali Baş Komandan əks-hücum əmri verdi. Ordumuzun şəxsi heyəti böyük qətiyyətlə döyüş əmrini yerinə yetirməyə başladı. Həmin vaxt Kahin Muradovun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirməklə yüksək döyüş, vətənpərvərlik nümunəsi göstərdilər. Kahin Muradov da illər öncə arzuladığı kimi Vətənin xilaskarları sırasında idi. Arzuladığı günlər artıq reallaşırdı. Vətən torpaqları kənd-kənd, şəhər-şəhər azad olunurdu. Vətən müharibəsi Böyük Qələbə ilə başa çatdı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Kahin Ceyhun oğlu Muradov "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



Tariximizə qəhrəmanlıq salnaməsini yazanlar sırasında olmasından qürur hissi keçirən çavuş Kahin Muradov "N" hərbi hissəsində xidmətini uğurla davam etdirir. Ona etibar olunan vəzifələri məsuliyyətlə, vaxtında və dəqiq yerinə yetirir.

"Silahdaşlarımla birgə qürurluyuq ki, Vətənimizə, xalqımıza daha çox gərəkli, dəyərli olan hərbçi peşəsini seçmişik, həyatımız, taleyimiz göstərdi ki, doğru seçim etmişik", - Kahin dedi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Füzuli Şəhəri Günü və Müstəqilliyin Bərpası Günü münasibətilə silsilə tədbirlər keçirilib

*Müdafiə nazirinin göstərişinə əsasən Azərbaycan Ordusunun qoşun növləri, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində Füzuli Şəhəri Günü və Müstəqilliyin Bərpası Günü münasibətilə silsilə tədbirlər keçirilib. Mərasimlərdə hərbi qulluqçular, ictimaiyyət nümayəndələri və müharibə veteranları iştirak ediblər. Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*





Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında müstəsna xidmətlərindən, müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində apardığı müdrik siyasətdən danışıblar. Ümummilli Liderin strateji kursunun bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi xüsusi vurğulanıb. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasəti sayəsində Azərbaycanın hüququn aliliyi, demokratiya və dünyəvilik prinsipləri üzərində qurulmuş müstəqil dövlət kimi öz inkişafının ən parlaq dövrünü yaşadığı diqqətə çatdırılıb.

Vurğulanıb ki, Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində qələbəmizin tarixi əhəmiyyətindən, torpaqlarımızın azad olunması naminə xalqımızın həmrəyliyindən, dövlətimizin ətrafında dəmir yumruq təki sıx birləşməsindən danışıblar, Füzuli şəhərinin və rayonun digər yaşayış məntəqələrinin azad edilməsinin strateji rolunu qeyd ediblər.

Bildirilib ki, zəfərimiz sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı təkcə Füzuli şəhərində deyil, suverenliyimizin bərqərar olduğu bütün ərazilərimizdə qürurla dalğalanır.

Döyüş iştirakçıları onların xidmətlərinə verilən yüksək qiymətə görə Müzəffər Ali Baş Komandana minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən şəhərin işğaldan azad olunduğu 17 oktyabr tarixi Füzuli Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunur.

Tədbirlər çərçivəsində Azərbaycan Ordusunun şəxsi heyəti şəhidlərimizin məzarlarını ziyarət edib, gül dəstələri düzərək xatirələrini hörmət və ehtiramla anıblar.

Şəxsi heyətə vətənpərvərlik mövzusunda mədəni-kütləvi tədbirlər təqdim olunub, Vətən müharibəsində qələbəmizə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.



* * *

Zaman ölçüsü olan tarix həm də hadisələrdir. Dövlətlə, dövlətçiliklə, xalqla bağlıdırsa, ona tarixi hadisə deyirik, bu hadisələri yaşada-yaşada dövlətçilik günlərindən biri kimi illərimizə yazırıq. Zaman üçün on illər o qədər də böyük müddət deyil. Həmin on illərin dövlətçiliklə bağlılığı varsa, illər keçdikcə ona yaxınlaşırıq sanki, ruhumuzla, ruhumuzda yaşada-yaşada yaxınlaşırıq...

İmperiya Azərbaycanın dövlət müstəqilliyini 1920-ci ilin 28 aprelində ilhaq eləmişdi. Bu ilhaq tarixin nizamını pozmuşdu. Dövlətin ilhaqı ruhun - müstəqillik, azadlıq mübarizəsinin ilhaqı ola bilməzdi. Xalqın mübarizə əzmi yaşadıldı, yaşadı, yaşatdı. Xalq Vətən demişdi - Şərqdə ilk demokratik respublika yaradılmışdı, xalq Vətən demişdi - imperiyanın siyasi boy göstərməsi, gücə söykənməsi tarixin heysiyyətini üyüşdürmüşdü. Xalq ilhaqı son nəfəsinə çatdırmaq üçün mübarizə aparırdı. Sovetlər İttifaqının siyasi təsir vasitələrinə (Sibir xofu, Lefortovo sıxıntıları, "37" vahiməsi, repressiyalar...) baxmayaraq ruhun mübarizəsi davam edirdi. İlk vaxtlar gizlin, sonralar aşkar. Fədailər bu mübarizəni söhbətlərlə aparırdı, tarixi, bədii əsərlərin məfkurəvi mahiyyətiylə aparırdı. Belə dönməz mübarizə tarixə deyirdi ki, "Su axan arxdan bir də axar". Dünya azərbaycançılığın qüdrətini gördü - Ermənistanın Azərbaycana qarşı elan etmədən başladığı ədalətsiz müharibədə döyüşə-döyüşə müstəqillik mübarizəsini davam etdirirdi. Azərbaycançılıq həm də müstəqilləşmək, dövlət müstəqilliyini bərpa etmək qüdrəti oldu...

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. 1918-ci ilin 28 aprelində İstiqlal Bəyannaməsi qəbul olunmuşdu. 73 ildən sonra, oktyabrın 18-də Konstitusiya Aktı! Tarix gördü ki, su axan arxdan yenə axır! Xalqın Vətənə sevgisiylə, dövlətə, dövlətçiliyə sədaqətiylə! Hər ikisi xalqın mübarizə ruhunun siyasi sənədi idi!...

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təşkil edilən tədbir iki ovqatın sevgisini ifadə edirdi: Müstəqilliyin Bərpası Günü (18 oktyabr), Füzuli Şəhəri Günü (17 oktyabr). Tədbirdə hər iki tarixi gün hərbi qulluqçuların düşüncələrindəydi, ruhundaydı...

Bakı Humanitar fənlər kollecinin müəllimi Yaqub Məmmədov çıxış edərək hər iki tarixi günün Azərbaycanın dövlətçiliyində yaşarı gün, dünyəvi gün olduğunu, bu günlərin hər ikisinin vətəndaşlıq qüruru ilə yaşadıldığını, yaşadılacağını xatırladaraq bildirdi ki, Azərbaycan Demokratik Respublikası Azərbaycan dövlətçiliyində siyasi, dünyəvi özül oldu. Xalqın müstəqillik mübarizəsinin nəticəsi olan 1991-ci il oktyabrın 18-də qəbul edilən dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı həm də ADR-in dövlətçilik işığından barınmışdı.



Yaqub Məmmədov müstəqil Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsindən, daxili və xarici qüvvələrə qarşı mübarizənin mahiyyətindən, böyük tarixi şəxsiyyət Heydər Əliyevin xalqın ciddi tələbi ilə hakimiyyətə qayıtmasından, Azərbaycanı siyasi baxımdan nüfuzlu, iqtisadi baxımdan güclü bir dövlət kimi formalaşdırmasından danışdı. Ordu quruculuğunun yeni mərhələsini yaratdığını, bu mərhələnin sonralar ordunun güclənməsində, nizami ordu kimi formalaşmasında, qüdrətlənməsində əsas baza olduğunu xatırlatdı. Bu ordu İkinci Qarabağ müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə işğalı sonlandıracaq döyüşlərə, ədalətli müharibəyə başladı. Oktyabrın 17-də Füzuli şəhəri və bir neçə kəndi işğaldan azad etdi.

İşğaldan əvvəl ordumuzun bir neçə uğurlu əməliyyatı olmuşdu. 1994-cü ilin yanvarında Horadiz əməliyyatında Horadiz və 20 kənd işğaldan azad edilmişdi. Bu əməliyyat Füzuli istiqamətində keçirilmiş ilk əməliyyat olmuşdu.

Yaqub Məmmədov çıxışında onu da bildirdi ki, kollecdə təhsil alanlar istər Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı haqqından, istərsə də İkinci Qarabağ müharibəsi, bu baxımdan Füzuli döyüşləri, Füzulinin işğaldan azad edilməsindən ətraflı məlumata malikdirlər və bu məlumatları Vətənə sevgi kimi yaşadırlar. Biz şagirdlərə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin oktyabrın 17-də xalqa müraciətində dediyi kəlamları da çatdırırıq: "...Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

Düşmənin ciddi müqavimətini qıran döyüşlər olduğuna görə, Azərbaycan əsgərinin döyüş əzminə, qələbə ruhuna, qətiyyətinə görə işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri böyük coşqu ilə davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə oktyabrın 17-si Füzuli Şəhəri Günü kimi qeyd olunur. Bu günün tarixi gün kimi qeyd olunması döyüşlərin iştirakçılarına, döyüşlərdə şəhid olanlara ehtiramın təzahürüdür.

Leytenant Ümid Hüseynov çıxışında qeyd etdi ki, Füzulidənəm, görmədiyim Füzulini xatirələrdən, təəssüratlardan tanımışam, sevmişəm. Füzuli uğrunda döyüşlər gedəndə mən də digərləri kimi özümü döyüşlərdə hiss edirdim. Füzuli Şəhəri Gününün təsis edilməsi təkcə füzulililərin deyil, Azərbaycanımızın sevgisi ilə əhatələnən gündür. Çox arzulayıram ki, Füzulidə xidmət edəm və əsgərlərlə asudə vaxtlarında Füzuli Şəhəri Gününün mahiyyətindən də danışam.

**(Ardı 5-ci səhifədə)**

# Füzuli Şəhəri Günü və Müstəqilliyin Bərpası Günü münasibətilə silsilə tədbirlər keçirilib





(Əvvəli 4-cü səhifədə)

Füzulidə böyük quruculuq işləri davam etməkdədir. Beynəlxalq aeroportun istifadəyə verilməsi bu regionun iqtisadi baxımdan daha da inkişaf edəcəyinin zəmanətidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 18-də Füzuli rayonuna səfərində ictimaiyyətin nümayəndələri ilə görüşündə Füzuli əməliyyatı haqqında dedi: "...Ermənistan tərəfi burada çox güclü istehkamlar qurmuşdu, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurulmuşdu. Otuz il ərzində düşmən burada möhkəmlənirdi və bu istehkamları yarmaq, keçmək xalqımızın bir daha böyük qəhrəmanlığını, fədakarlığını göstərmişdir. Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar...". Tədbirdə iştirak edən hərbi qulluqçular bir daha əmin oldular ki, Füzuli Şəhəri Günü həm də bu kəlamların davamı kimi tarixləşib.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən tədbirdə müstəqilliyimizin bərpasının 33 illiyi və Füzuli Şəhəri Günü xoş ovqatla anıldı.

Tədbirdə Bakı şəhəri Mədəniyyət Baş İdarəsinin təşkil etdiyi konsert proqramı təqdim olundu.

Çıxış edən Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov tədbir iştirakçılarını hər iki günün xoş ovqatı ilə təbrik etdi, bu günlərin Azərbaycanın tarixində əhəmiyyətindən, ordu quruculuğunda böyük mənəvi stimul olmasından danışdı. Qeyd etdi ki, işğaldan azad edilmiş rayonlara ad olan günləri vətənpərvərlik ümumiləşdirir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində Müstəqilliyin Bərpası Günü münasibətilə açıq səma altında tədbir keçirildi. Hərbi hissənin sıra meydanı bayram ovqatında bayraqlarla bəzədilmişdi.

Baş leytenant Günel Dadaşova Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbiri açıq elan etdi. O, Müstəqillik gününün bərpası ilə bağlı bildirdi ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi olub. Bu tarixi gerçəklik SSRİ-nin dağılmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardıb. Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Müstəqillik yoluna yenicə qədəm qoymuş Azərbaycan Respublikasının tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, əhalinin təhlükəsizliyinin və rifah halının yaxşılaşdırılması kimi mühüm vəzifələr durur. İlk olaraq Azərbaycanın müstəqilliyi Türkiyə, Rumıniya və Pakistan tərəfindən tanınıb.



Mərkəzin əməkdaşı Gülxar Məmmədova Müstəqilliyin Bərpası Günü ilə bağlı dedi: - Hər bir xalqın həyatında unudulmaz günlər, tarixi əhəmiyyətli anlar çox olub. Onlar zaman-zaman yadellilərə qarşı mübarizələr aparıb, müstəqilliyə, azadlığa qovuşmaq üçün olmazın məşəqqətlərindən keçiblər. Qeyd olunan xalqlar arasında azərbaycanlılar qədim dövrlərdən bəri tez-tez yadellilərin hücumlarına məruz qalsalar da, sona qədər əzmlə mübarizə apararaq öz dövlət müstəqilliyini bərpa ediblər. Ötən əsrin ikinci on illiyinin sonunda xalqımızın bir qrup vətənpərvər ziyalısı birləşərək şərqdə ilk Demokratik Cümhuriyyəti qura bildi. O zaman bu Cümhuriyyətin qurucuları Avropada və qərbdə geniş yayılmaqda olan demokratik dəyərlərə söykənən, milləti tərəqqiyə, inkişafa aparan dövləti idarə edəcək bir quruluşu bərqərar ediblər. Müsəlman şərqində ilk dəfə islam dəyərlərini qoruyub saxlamaqla bu ideyalar Azərbaycanda tətbiq edilərək geniş yayılırdı. Lakin gənc müstəqil dövlətin dayaqları hələ zəif idi. Erməni daşnak qüvvələrinin tör-töküntüləri bolşeviklərə qoşularaq Azərbaycanın bir çox ərazilərində; Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Gəncədə, Salyanda və başqa yerlərdə dinc əhaliyə qarşı qırğınlar törədirdilər. Onların bu cür hücumları gənc bir dövlətin möhkəmlənib ayaqda durmasına böyük əngəllər törədirdi. Düşmən qüvvələrin bu cür hücumlarının qarşısı bəzən alınırdı. Bir çox hallarda təpədən-dırnağadək silahlanmış daşnak qüvvələrinin hücumlarının qarşısını almaq mümkün olmurdu. Hücumların əsas məqsədi Azərbaycan Demokratik Cümhuriyyətinin möhkəmlənməsinə və inkişafına qarşı yönəlmiş düşmənin çirkin planı idi. Zəif və güclənə bilməyən Azərbaycan Demokratik Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu. On birinci Qırmızı Ordunun birləşmələri Bakı şəhərinə daxil olaraq müstəqilliyimizi süquta uğratdı. Beləliklə, Azərbaycan xalqı bolşevik Rusiyanın tərkibinə qatıldı və 70 il sovet imperiyasının əsarəti altında yaşamağa məhkum edildi.

Sovet imperiyasının tərkibində olduğumuz dövrdə xalqımızın vətənpərvər oğul və qızları tarixi müstəqilliyə qovuşmaq arzusu ilə zaman-zaman mübarizələr aparmış və nəhayət, 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə 1918-ci ildə elan edilmiş Azərbaycan Demokratik Cümhuriyyətinin ideya və prinsiplərini saxlamaqla dövlət müstəqilliyinin bərpa edilməsi barədə qərar qəbul edildi. Bu gün Azərbaycanın müstəqilliyini bərpa etməsindən 33 il keçir.

Müstəqilliyimizin ilk illəri xalqımız üçün olduqca təlatümlü oldu. O zaman gənc müstəqil dövlətin ərazi bütövlüyünə qarşı erməni təhdidi baş qaldırmışdı. Daxildə hakimiyyət uğrunda ayrı-ayrı qüvvələr baş qaldırmış və siyasi hakimiyyəti zəiflətmiş, Birinci Qarabağ müharibəsində məğlubiyyət qaçılmaz olmuşdu. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqilliyinə, suverenliyinə olan təhlükə aradan qalxdı. Ölkəmiz yenidən inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadiyyatı sürətlə inkişaf etdirdi, ordu quruculuğuna, xalqın rifah halının yaxşılaşdırılmasına diqqət ayırdı. Otuz ilə yaxın erməni silahlı dəstələrinin işğalında qalmış torpaqlarımızı azad etdi və ölkəmizin suverenliyinin bərpasına nail oldu.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hərbi hissələrdə Müstəqilliyin Bərpası Gününə və Füzuli Şəhəri Gününə həsr olunmuş tədbirlər keçirildi.

Mərkəzin əməkdaşları Azərbaycan xalqının qədim dövlətçilik tarixindən və XX yüzillikdə sovet imperiyasının süqutundan, 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsindən ətraflı bəhs etdilər. Bildirdilər ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlət kimi 23 ay fəaliyyət göstərdi. Bolşeviklərin ölkəmizi ilhaq etməsi ilə respublikamız ittifaq dövlətinə daxil oldu. 73 ildən sonra Azərbaycanın müstəqilliyi bərpa olundu, Azərbaycan ADR-in varisi elan edildi.

Ölkəmizə qarşı havadarlarından dəstək alan Ermənistan qədim yurd yerimiz Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi və yeni ərazilər işğal etmək iddiası ilə ölkəmizə qarşı müharibəyə başladı. Ölkəmizdə yaranmış mürəkkəb siyasi vəziyyətdən istifadə edən düşmən ərazilərimizi işğal etdi. Müstəqilliyimizin itirilməsi təhlükəsi yarandı. Belə ağır durumda xalqımız öz xilaskarına, müdrik dövlət xadimi Heydər Əliyevə müraciət etdi. Xalqımızın təkidli tələbi ilə Ulu Öndər xalqına, Vətəninə yenidən sahib çıxdı. 15 iyun 1993-cü ildə hakimiyyətə qayıtdı.

Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə yeni yüksəliş dövrü başlandı. Böyük, genişmiqyaslı quruculuq islahatları həyata keçirildi. Ermənistanla atəşkəs müqaviləsi imzalandı. Bundan sonra ordu quruculuğuna xüsusi diqqət yetirildi. Ulu Öndər silahlı qüvvələrin yenidən formalaşmasına, ordunun yüksək səviyyədə təşkilinə nail oldu və bildirdi ki, Azərbaycan xalqının özünü öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu vardır.

Ulu Öndər böyük xilaskarlıq missiyasını həyata keçirərək Azərbaycanı dünya miqyasında tanıtmaqla Ermənistanı işğalçı dövlət kimi tanıtdı. O, böyük inamla bildirirdi: "Çox keçməyəcək ki, Azərbaycan xalqı, dövləti, silahlı qüvvələri düşmən qüvvələrdən Vətən torpaqlarını azad edəcək və soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar". Ulu Öndərin böyük arzusu onun layiqli varisi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəlik məharəti ordumuzun rəşadəti, xalqımızın sonsuz dəstəyi ilə yerinə yetirildi. Ordumuzun qüdrəti ilə Vətən torpaqları azad olundu. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu.

Sonra çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbənin əhəmiyyətindən danışdılar. Bildirildi ki, işğaldan azad edilmiş rayonların, şəhərlərin tarixi günlərlə qeyd olunması da əsl vətənpərvərlikdir.

"Əsgərə məktub" layihəsi əsasında Vətən keşikçiləri doğmalarına qürur dolu məktublar ünvanladılar.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Polkovnik-leytenant: Mənqələnatanın nəzarətə götürülməsi Füzulinin azad edilməsində həlledici rol oynadı




Strateji cəhətdən əlverişli ərazidə yerləşən Füzuli şəhərinin və rayonun digər yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi növbəti qələbələrimizə açılan qapı oldu.

Bunu AZƏRTAC-a açıqlamasında ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist İsa İsmayılov söyləyib.

Hərbi jurnalistin qənaətinə görə, Füzuli rayonunun strateji cəhətdən çox mühüm əhəmiyyətə malik olması səbəbindən düşmən bu istiqamətdə qızğın müqavimət göstərdi. Füzuli şəhərinin və rayonun digər yaşayış məntəqələrinin azad edilməsi uğrunda qanlı döyüşlər getdi. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına gedən yolların əksəriyyəti məhz Füzuli rayonu ərazisindən keçir. Buranı rəmzi olaraq azad edilmiş rayonlarımızın "Giriş qapısı" da adlandırmaq olar.

O qeyd edib ki, yollara nəzarət həm irəliləyən qoşunların fasiləsiz təminatını həyata keçirməyə, həm də əlavə qüvvələr cəlb etməklə əks-həmlələrə cəhd edən düşmən qüvvələrinin, ehtiyatlarının vaxtında aşkarlanmasına və məhv edilməsinə imkan yaradır: "Məhz bu səbəbdən Ali Baş Komandanın tapşırığına əsasən, hərbi komandanlığın qısa müddətdə hazırladığı plana uyğun olaraq, əks-hücum əməliyyatının başladığı ilk istiqamətlərdən biri Füzuli rayonu seçildi. Yollara nəzarətin açarı isə ərazidəki yüksəkliklərin düşməndən təmizlənməsi və bölmələrimizin orada möhkəmlənməsində idi. Bu mənada Füzuli rayonunun işğaldan azad edilməsi ərəfəsində qoşunlarımız tərəfindən buradakı yüksəkliklərin, xüsusilə də böyük strateji əhəmiyyətli Mənqələnata dağının düşməndən təmizlənərək nəzarətə götürülməsi bütövlükdə rayonun azad edilməsində həlledici rol oynayan faktorlardan biri oldu".

Onun fikrincə, əməliyyat planına və komandanlığın niyyətinə əsasən qısa müddətdə Füzuli rayonunun erməni silahlı birləşmələrinin işğalından azad olunması qoşunlarımızın sürətlə irəliləməsini təmin etdi, digər istiqamətlərdə də uğurlar qazanmağımıza böyük töhfə verdi. Vətən müharibəsində ilk yarma əməliyyatı, düşmənin ön xətt sədlərinin darmadağın edilməsi məhz Füzuli istiqamətində baş verdi. Digər istiqamətlərdə olduğu kimi, burada da "Ohanyan səddi" müharibənin elə ilk günündə darmadağın edildi və beləliklə, bu sədd haqqında ermənilərin yaratdığı mif puç oldu.

Vətən müharibəsi dövründəki yaddaqalan məqamlara toxunarkən hərbi jurnalist qeyd edib ki, Müzəffər Ali Baş Komandanın əks-hücum əmrini hərbi qulluqçular yüksək döyüş əzmi ilə qarşıladığı kimi, onun xalqa müraciətlərini, yaşayış məntəqələrimizin azad edilməsi ilə bağlı təbriklərini də şəxsi heyət Qələbəyə inam bilir, qürurla, sevinclə qarşılayırdı. Oktyabrın 17-də Füzuli şəhəri işğaldan azad edildi, bu haqda Silahlı Qüvvələrin Ali Baş Komandanına məruzə olundu. Prezidentimizin qələbə müjdəsi xalqımız tərəfindən izdihamla, böyük coşqu ilə qarşılandı.

"Şanlı Zəfərimizin 4-cü ildönümü ərəfəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə şəhid olanları ehtiramla yad edən, döyüşlərdə yaralananlara sağlamlıqlarını bərpa edərək firavan həyat yaşamağı arzulayan xalqımız yenə də eyni qüruru, eyni coşqunu, eyni həmrəyliyi yaşayır. Əminəm ki, dünya durduqca bu dəyişməz olaraq qalacaqdır", - deyə o, fikrini yekunlaşdırıb.

## "Mənqələnata çox mühüm strateji yüksəklik idi..." - Füzuli şəhərini işğaldan azad edən hərbçilər danışır



Düz 4 il əvvəl oktyabrın 17-də Füzuli şəhəri işğaldan azad olundu. Otuz ilə yaxın müddətdə düşmən işğalında qalan Füzuli rayonunu azad edilmiş rayonların rəmzi olaraq "Giriş qapısı" adlandırmaq da mümkündür. Çünki Qarabağın işğaldan azad olunması üçün əvvəlcə Füzuli azad edilməliydi. Rayon strateji cəhətdən mühüm əhəmiyyətə malik olduğu üçün düşmən ordusu həmin ərazilərdə güclü müqavimət göstərirdi. Məhz bu səbəbdən də yuxarı komandanlıq ilk əks-hücum əməliyyatına Füzuli ərazisindən başlamaq barədə əmr verdi. Əsgər və zabitlərin böyük qəhrəmanlığı, fədakarlığı, bölmələrimizin döyüş ruhu və qələbə əzmi düşmənin müqavimətini qırdı. Şəxsi heyətin şücaəti və peşəkarlığı qarşısında aciz qalan düşmən silah-sursatını da ataraq müqavimət göstərdiyi mövqeləri, səngərləri qoyub qaçdı, yaşayış məntəqələrimizdən çıxarıldı. Beləliklə, 2020-ci il sentyabrın 27-də başlanan əks-hücumdan sonra ilk müdafiə xətti yarıldı və döyüş tapşırığı uğurla yerinə yetirilərək düşmənin ön xətti darmadağın edildi. Erməni hərbi birləşmələri "keçilməz "Ohanyan səddi"ndən geri oturdularaq ərazidə ən hündür yerə - Mənqələnata dağına sığındı. Həmin yüksəkliyin düşməndən təmizlənərək nəzarətə götürülməsi Ordumuzun uğur qazanmasında mühüm rol oynadı.

Füzulu Şəhəri Günü ərəfəsində AZƏRTAC-ın çəkiliş heyəti Mənqələnata dağını və Füzuli şəhərini işğaldan azad edən hərbçilərdən müsahibələr alıb.

Füzulinin işğaldan azad olunmasında böyük şücaət göstərən Azərbaycan Ordusunun hərbi qulluqçularından biri həmin günləri belə xatırlayır: "Mənqələnata dağı çox mühüm strateji yüksəklik idi. Bu dağda düşmənin silahlı qüvvələri yerləşmişdi, çox güclü istehkam qurğuları vardı. Düşmənin oradan çıxarılması bir neçə saat çəkdi. Rəşadətli Ordumuzun onların üzərinə hücuma keçməsi nəticəsində düşmən silahını, təchizatını qoyaraq geri çəkildi. Hərbçilərimiz Mənqələnata dağına gələnə qədər düşmənin bir neçə əsas dayaq məntəqəsini darmadağın etdi. Rəşadətli Ordumuz Alxanlı, Əbdürrəhmanlı kəndlərindən düşməni geriyə çəkilməyə məcbur etdi və düşmənə sarsıdıcı zərbələr endirdi.

Digər hərbi qulluqçu deyib: "Biz Füzuli rayonunun Alxanlı kəndindən keçəndən sonra Şpartı düzü istiqamətindən Mənqələnata dağında gedən döyüşə başladıq. Azərbaycanın artilleriya qüvvələri döyüşə başladıqdan sonra 30 dəqiqə ərzində düşmənin əsas qüvvələrinə dayanmadan, sarsılmaz zərbələr endirdi. Düşmən artilleriya zərbələrini görəndən sonra mövqelərini tərk etmək məcburiyyətində qaldı. Həmin vaxt bir məqsədimiz vardı: Döyüşdə itki az vermək və torpaqlarımızı azad etmək. Allah şəhidlərmizə rəhmət etsin. Öz doğma torpaqlarımızı düşmən tapdağından təmizlədiyimiz üçün fəxr hissi keçirirəm".



Füzulidəki döyüşün əhəmiyyətdən danışan hərbi ekspert Azər Bayramovun fikrincə, rayonun işğaldan azad olunması ilə erməni silahlı qüvvələri "bufer zonası"nı itirmiş oldu: "Xankəndinin və Xocavəndin müdafiə olunması üçün düşmən Füzuli şəhərini "bufer zona" kimi görürdü. Belə ki, Azərbaycan Ordusunun həyata keçirdiyi fəaliyyətlər, "Ohanyan səddi"nin yarılması, Füzuli və Cəbrayıl rayonlarının bir neçə kəndinin azad olunmasından sonrakı mərhələdə düşmən Silahlı Qüvvələrimizin əsas hücumunu məhz Füzuli şəhərindən gözləyirdi. Onların əsas məqsədi Azərbaycan Ordusunun qarşısını açıqlıq ərazidə almaq idi".



Bu döyüşlərdə qalib gələn qəhrəman hərbçilərimiz qələbələri ilə xalqımızı sevindirib, dövlətimiz tərəfindən fəxri adlara, orden və medallara layiq görülüblər. Onlar əməklərinə verilən yüksək qiymətə görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər.

Füzulinin azad olunması uğrunda döyüşlərdə iştirakına görə medalla mükafatlandırılan digər hərbi qulluqçulardan biri isə deyib: "Ermənilərin keçilməz hesab etdikləri səddi yararaq irəliləsək də, əlverişli strateji yüksəklik olan Mənqələnata dağı adlanan ərazi düşmən nəzarəti altında idi. Düşmən həmin strateji yüksəklikdən canlı qüvvə və döyüş texnikasının hərəkətini izləyə bilirdi. Mənqələnata dağının təmizlənməsi uğrunda ordu hissələrimizin uğurla yerinə yetirdiyi əməliyyatdan sonra Azərbaycan Ordusu bütünlüklə Füzuli rayonuna nəzarət etməyə başladı.

Bir Ordu mənsubu olaraq Füzulinin işğaldan azad olunması uğrunda aparılan döyüşlərdə fəal iştirak etdiyimə, Ali Baş Komandan tərəfindən medallarla təltif olunduğuma görə qürur hissi keçirirəm".

Düşmən məqsədinə çata bilmədi. Şəhidlərimiz, qazilərimiz olsa da, Ali Baş Komandan cənab İlham Əliyevin verdiyi əks-hücum əmri uğurla yerinə yetirildi və beləliklə Füzuli şəhəri düşmən işğalından azad edildi. Hədəf isə bütün Qarabağı işğaldan azad etmək idi və bu arzumuza da çatdıq!

Müharibədən sonra azad olunan həmin ərazilərdə böyük abadlıq, tikinti-quruculuq işləri aparılır. Füzuliyə həyatın qayıtması, məcburi köçkünlərin öz doğma torpaqlarına geri dönməsi Prezident, Müzəffər Ali Baş Komandanın yürütdüyü uğurlu siyasətin nəticəsidir.

# İstanbul şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan kursantları arasında idman yarışları keçirilib







Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələrinin qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi tədbirləri çərçivəsində İstanbul şəhərində hər üç ölkənin hərbi məktəblərinin kursantları arasında dostluq idman yarışları keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, qardaş ölkənin Milli Müdafiə Universiteti tərəfindən təşkil olunan Azərbaycan-Gürcüstan-Türkiyə kursantları arasında idman sahəsi üzrə üçtərəfli yarışda ölkəmizi Heydər Əliyev adına Hərbi İnstitutun 3-ü zabit və 31-i kursant olmaqla, 34 nəfərlik heyəti təmsil edib.

Yarışlara atletika, voleybol, üzgüçülük və güləş idman növləri daxildir.

Türkiyə Respublikası Milli Müdafiə Universitetinin Hərbi Dənizçilik Məktəbinin ev sahibliyi ilə keçirilən yarışlar oktyabrın 18-də başa çatıb.

# Dövlət qurumlarının əməkdaşları arasında stolüstü tennis yarışları keçirilib






*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə idmanın davamlı inkişafını təmin etmək və bu sahədə qazanılan nailiyyətləri daha da artırmaq məqsədilə ardıcıl və məqsədyönlü işlər aparılır. Əhalinin sağlam həyat tərzinin təmin edilməsi məqsədilə hər il ölkəmizdə müxtəlif kütləvi idman tədbirləri və yarışları təşkil edilir. Həmin tədbirlərdə Müdafiə Nazirliyinin şəxsi heyətinin də iştirakı yüksək səviyyədə təmin edilir.*

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə dövlət qurumlarının əməkdaşları arasında keçirilən kütləvi idman yarışlarında Müdafiə Nazirliyinin əməkdaşı fərqlənib.

Belə ki, Gənclər və İdman Nazirliyi və Azərbaycan Stolüstü Tennis Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən, 21 dövlət qurumunun təmsil olunduğu stolüstü tennis yarışında nazirliyin əməkdaşı Yeganə Əlizadə gümüş medal qazanıb.

Qeyd edək ki, "Şüa" İdman Kompleksində təşkil olunan yarışda qadınlar arasında Svetlana Kayumova (SOCAR) fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib. Yeganə Əlizadə (Müdafiə Nazirliyi) və Nərgiz Daşdəmirova (SOCAR) müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər.



Kişilər arasında Əli Bayramov (Fövqəladə Hallar Nazirliyi) bütün rəqiblərini qabaqlayaraq birinci olub. Yaşar Mövlanov (Dövlət Turizm Agentliyi) yarışı ikinci, Vüqar İbrahimov (FHN) isə üçüncü pillədə başa vurublar.

**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Qələbəyə gedən yol sıra meydanından başlayır

"N" hərbi hissəsinin sıra meydanında günün nizam qaydalarına uyğun olaraq əsgərlərlə sıra hazırlığı məşğələsinin keçirildiyinin şahidi olduq. Məşğələ rəhbərinin izah etdiyi elementləri səhvsiz təkrarlayan əsgərlərin məşğələyə maraqları kənardan hiss olunurdu. Onların bir komanda ilə ayaqlarının eyni anda yerə vurmasından yaranan ritmik səslər dağlarda əks-səda ilə yayılırdı. Əllərini və ayaqlarını nizami şəkildə, eyni anda hərəkət etdirmələrini izləmək insana könül xoşluğu bəxş edirdi. Məşğələni sonacan izlədikdən sonra hərbçilərlə söhbət etmək imkanımız oldu.

Məşğələ rəhbəri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ümid Məmmədov sıra hazırlığının əhəmiyyətindən danışaraq vurğuladı ki, keçirilən məşğələlərin hərbçilərin intizamını artırılmasında rolu əvəzsizdir. "Sıra hazırlığı hərbi xidmətin əsas tərkib hissəsidir. Təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq səhər və axşam saatlarında əsgərlərlə sıra elementlərini məşq edirik. Verilən əmrləri bacarıqla yerinə yetirmələri, onların öyrənməyə və hərbi xidmətə olan marağını göstərir. Bu məşğələ əsgərlərin birgə fəaliyyətini, koordinasiyasını və hərbi əmrlərə cavabvermə qabiliyyətini inkişaf etdirmək üçün vacibdir. Sırada birgə hərəkət etmək əsgərlərin fiziki, mental və intizamlı şəkildə hazır olmalarını təmin edir. Sıra hazırlığı yalnız fiziki güc və intizamla bağlı deyil, həm də əsgərlərin vətənpərvərlik hisslərinin inkişafında da mühüm rol oynayır. Hər bir əsgər sırada dayandığı zaman Vətənin müdafiəsi üçün, müqəddəs vəzifələr üçün burada olduğunu dərk edir. Bu, onlara həm də bir məqsəd uğrunda birgə mübarizə aparmağı öyrədir. Hər bir əsgərin Vətənə olan sonsuz sevgisi onu xidmətə daha çox bağlayır. Səmərəli keçirilən dərslərin nəticəsidir ki, əsgərlərimiz sıra, cərgə, kolon, cinah, interval və distansiya kimi nizamnamə tələblərini uğurla icra edirlər. Əvvəlki dövrlərdə çətinliklər olsa da, bu gün onların hər biri yüksək hazırlıq səviyyəsinə malikdir".



Əsgər Aydın Qurbanlı xidmətə başladığı gündən təcrübəli komandirlərindən hərbi biliklər öyrəndiyini qeyd etdi. "İlk günlər mənim də sıra hazırlığı məşğələlərində çətinliklərim olurdu. Ancaq komandirlərimizin diqqət və qayğısı, səbirlə öyrətmə bacarıqları sayəsində qısa müddətdə sıra hazırlığının bütün elementlərini mənimsədim. Mən və əsgər yoldaşlarım yalnız sıra hazırlığı deyil, həm də döyüş, atış və fiziki hazırlıqlarımızı da inkişaf etdirmişik. İndi verilən bütün komandaları gecikmədən və nöqsansız şəkildə icra edə bilirik", - əsgər A.Qurbanlı dedi.

Əsgər Sərxan Novruzov xalqımıza qələbə sevincini yaşadan peşəkar hərbçilərimizin davamçısı olaraq güclü ordumuzda xidmət etməsindən qürur duyduğunu bildirdi: "Hərbi xidmətə başlamazdan əvvəl çox həyəcanlı idim. Kiçik yaşlarımdan televiziya kanallarında təqdim olunan hərbi paradlarda hərbçilərimizin təntənəli keçidini qürur hissi ilə izləyirdim. Hər zaman arzulayırdım ki, mən də əsgər olub həmin hərbi qulluqçular kimi nizamlı sıra atmağı bacarım. Xatırlayıram, təntənəli andiçmə mərasimimizə hazırlaşarkən komandirlərimiz sıra hazırlığının incəliklərini artıq bizə öyrətmişdilər. Qısa zaman ərzində əsgər yoldaşlarımla bərabər lazımi elementləri icra edə bilirdik. Bu gün də öz üzərimizdə çalışır, hərbin bütün sirlərinə yiyələnməyə səy göstəririk. Xalqımıza layiqli əsgər, layiqli vətəndaş olmaq ən böyük arzumdur".

Digər əsgərlər Rəşad, Elvin, Cəlal və başqaları da söhbət zamanı sıra hazırlığının əhəmiyyətini dərk etdiklərini, verilən tapşırıqları cəld və səhvsiz yerinə yetirmək üçün çox çalışdıqlarını ifadə etdilər. Hər bir əsgərin öz vəzifəsinin öhdəsindən layiqincə gəldiyinin, Vətənə sədaqətlə xidmət etdiyinin canlı şahidi olduq. Gördüklərimiz Vətənimizin müdafiəsinin etibarlı əllərdə olmasının əyani sübutudur.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Silah və texnikanın payız-qış mövsümündə istismar rejiminə keçirilməsi ilə bağlı kompleks tədbirlər icra olunur



Azərbaycan Ordusunda 2024-cü ilin hazırlıq planına uyğun olaraq, silah, döyüş və xüsusi texnikanın payız-qış mövsümündə istismar rejiminə keçirilməsi üzrə kompleks tədbirlər icra edilir.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi hissələrdə silah və texnikanın payız-qış mövsümündə fasiləsiz və düzgün istismarını təmin etmək məqsədilə bölmələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, həmçinin digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin olunur.

Kompleks tədbirlər çərçivəsində texnikanın yanacaq-sürtgü materialları mövsümə uyğun dəyişdirilir, həmçinin elektrik və hidravlik sistemlərin istismara yararlılığı yoxlanılır.

## Hərbi vəzifəlilərin növbəti təlim toplanışı başlayıb



Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, toplanış məntəqəsinin qərargahında müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçən hərbi vəzifəlilər hərbi geyim və digər təminat növləri ilə təmin olunublar.

Toplanış müddətində hərbi vəzifəlilərə Azərbaycan Ordusunun arsenalında olan müasir silah və hərbi texnikaların taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları, həmçinin sıra hazırlığının elementləri öyrədiləcək.

Təlim toplanışının əsas məqsədi ehtiyatdan çağırılan hərbi vəzifəlilərin döyüş hazırlığının, bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi, eləcə də praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ordusu İraqın şimalında üç gün ərzində 14 terrorçunu məhv edib



Türkiyə Hərbi Hava Qüvvələrinin oktyabrın 9-dan 11-dək İraqın şimalında PKK terror təşkilatının obyektlərinə endirdiyi hava zərbələri nəticəsində 14 terrorçu zərərsizləşdirilib.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verib.

Məlumatda Türkiyə ordusunun terrorçuların yerləşdiyi bazalarda onların məhv edilməsi üzrə əməliyyatların davam edəcəyi vurğulanıb. Belə ki, Qara rayonunda 8 terrorçu, Xakurk bölgəsində isə 5 yaraqlı zərərsizləşdirilib.

Türkiyə Milli Müdafiə Nazirliyinin məlumatına görə, 2024-cü ilin əvvəlindən indiyədək türk hərbçiləri tərəfindən 2150-dən artıq terrorçu zərərsizləşdirilib. Eyni zamanda, onların əksəriyyəti İraqın şimalında məhv edilib.

### Pentaqon: ABŞ HƏMAS liderinin zərərsizləşdirilməsi əməliyyatında iştirak etməyib

ABŞ ordusunun HƏMAS lideri Yəhya Sinvarın öldürülməsi əməliyyatında heç bir rolu yoxdur.

Bu sözləri keçirdiyi mətbuat konfransında Pentaqon sözçüsü Patrik Rayder deyib. O bildirib ki, bu, İsrailin əməliyyatı idi və ABŞ burada əməliyyatlara birbaşa cəlb olunmayıb.



"Birləşmiş Ştatlar girovların saxlanmasına cavabdeh olan HƏMAS liderlərinin izlənməsi və yerinin müəyyən edilməsi ilə bağlı kəşfiyyat məlumatlarına dair İsrailə köməklik göstərib. Təbii ki, bu, həm də ümumi mənzərəyə töhfə verib", - deyə Pentaqon rəsmisi bildirib.

### Ciorcia Meloni: İsrailə silah ixracı üçün lisenziyaların verilməsi dayandırılıb



İsrail Qəzza sektorunda hərbi əməliyyata başlayandan bəri İtaliya bu ölkəyə silah ixracı üçün yeni lisenziya verməyib.

Bu barədə İtaliyanın Baş naziri Ciorcia Meloninin hökumət saytında dərc olunan bəyanatında deyilir.

"İsrail Qəzza sektorunda əməliyyata başladıqdan sonra hökumət İsrailə silah ixracı üçün hər hansı yeni lisenziyaların verilməsini dərhal dayandırıb. Bu səbəbdən oktyabrın 7-dən sonra imzalanan müqavilələrin heç biri yerinə yetirilməyib", - deyə Ciorcia Meloni bildirib.

Baş nazir, həmçinin əlavə edib ki, Qəzza sektorunda böhranın davam etdiyi müddətdə İsrailə silah ixracı üçün yeni lisenziyalar verilməyəcək.

Qeyd edək ki, oktyabrın 5-də Fransa Prezidenti Emmanuel Makron İsraila silah tədarükünün dayandırılmasını münaqişənin siyasi həlli üçün prioritet adlandırıb. O, eyni zamanda, Livanın yeni Qəzzaya çevrilməməli olduğunu bəyan edib və yəhudi dövlətini hərbi əməliyyatları dayandırmağa çağırıb. Oktyabrın 11-də isə Yunanıstan, İspaniya, İtaliya, Kipr, Malta, Portuqaliya, Sloveniya, Fransa, Xorvatiya "MED-9" (Doqquz Aralıq dənizi ölkəsi) sammitindən sonra İsrailə silah ixracının dayandırılmasının lehinə çıxış edib.

### Şimali Koreya Cənubi Koreyanı "düşmən dövlət" elan edib



Şimali Koreya ölkə konstitusiyasına dəyişiklik etməklə Cənubi Koreyanı "düşmən dövlət" kimi tanıyıb.

Bu barədə Şimali Koreya Mərkəzi Xəbər Agentliyi (KCNA) məlumat yayıb.

Xəbərdə oktyabrın 15-də "Koreyalar"ı birləşdirən bəzi yolların partladılmasının səbəbinə toxunulub və bu məsələnin konstitusiya dəyişikliyinə əsasən, "qaçılmaz və qanuni tədbirlər" olduğu qeyd edilib.

Bununla əlaqədar Cənubi Koreyanın Birləşmə Nazirliyindən verilən açıqlamada Şimalın bu hərəkətinin "antibirləşmə" fəaliyyəti olduğu vurğulanıb və "düşmən dövlət" ifadəsi pislənilib.

Bəyanatda, həmçinin "Şimalın təxribatlarına sərt cavab veriləcəyi" diqqətə çatdırılıb.

Xatırladaq ki, yanvar ayında Şimali Koreya lideri Kim Çen In Cənubi Koreyanı "daimi düşmən" kimi təyin etmək üçün konstitusiyaya dəyişiklik olunmasını tələb etmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

## Çin şirkəti dünyada ilk 6 tonluq pilotsuz uçuş aparatını təqdim edib



*Çinin "United Aircraft Group" şirkəti dünyanın ən böyük tiltrotoru sayılan unikal "Lanying R6000" pilotsuz uçuş aparatı (PUA) hazırlayıb. Sinxua agentliyi xəbər verir ki, çəkisi 6 ton olan bu təyyarə 2 tona qədər yükdaşıma qabiliyyətinə malikdir və həm pilotsuz, həm də pilotsuz rejimdə idarə oluna bilər.*

*"Lanying R6000", eyni zamanda, 10 sərnişin tutumuna malikdir, onun maksimal uçuş məsafəsi 4000 kilometr, sürəti isə saatda 550 kilometrdir. PUA 7620 metr hündürlükdə uça bilir.*

*2024-cü ilin yayında PUA-nın ilk sınaqları uğurla keçirilib və 20 dəqiqəlik uçuş zamanı bütün sistemlərin qüsursuz işləməsi nümayiş etdirilib.*

*"Lanying R6000" şaquli şəkildə qalxmaq və enmək, eləcə də havada uçmaq qabiliyyəti ilə seçilir. Konstruktorlar bu PUA-nın nəqliyyat, logistika və hərbi sektorlarda, o cümlədən müdafiə və axtarış-xilasetmə əməliyyatlarında istifadəsinin geniş perspektivlərini görürlər.*

*Bu hava-nəqliyyat vasitəsinin inşası on ildən çox çəkib. Mürəkkəb PUA-nın kütləvi istehsalını təşkil etmək üçün Birləşmiş Təyyarə Qrupu inkişafdan istismara qədər bütün mərhələləri əhatə edən 200-dən çox müəssisənin səylərini birləşdirib.*

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

Leytenant Əlizadə Röyal Seyidəli oğluna verilmiş SQ № 0024244 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Əliyev Miryunis Araz oğluna verilmiş AD № 0042427 nömrəli şəxsi vəsiqə və əsgər Əkbərov Kənan Əhməd oğluna verilmiş AD № 0063406 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Ələkbərov Elçin Mübariz oğluna verilmiş MV № 015178 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
baş leytenant
Oruc MUSTAFAYEV

Lisenziya № 361
Sifariş № 641
Nüsxə 4650